## Evimiz Üçün

**◆Yaqub Kərimi**

Çalışıb biraz pul yığmışam usta
Kömək et mənə də bir otaq tikək.
Bezdim yaşamaqdan kədərdə yasta
Gəl indi evimi ağapbaq tikək.

Pəncərə qoymağa ehtiyac yoxdu
Bizim evimizə gün düşən deyil.
Son vaxtlar inciyib küsənim çoxdu
Günəş də inciyib məndən elə bil.

Bəzəyək gərəkli rəsimlər ilə
Evimin içini boş görünməsin.
Əvvəl soba rəsmi çək bu mənzilə
Qoy bu il qorxulu qış görünməsin.

Başdaki divarda televizor çək
İçində Tom ilə Ceri də olsun.
Balam bunu görüb çox sevinəcək
Bu evdən qoy gülüş səsi ucalsın.

Üzbəüz divarda xarici divan
Yerə də bir xalça rəsmini döşə.
Bir də buzdolabı çək dolanacan
Bizdə də ən ləziz yeməklər bişə.

Bu evin damını tez örtək gərək
Yağış korlamasın evimin için.
Gedim uşaqlardan soruşum görək
Başqa nə lazımdır evimiz üçün?

## Ürəksiz

**◆Habil Yaşar**

Ürəksizə ürək vermə ay ürək,
Salamı da alar-verər ürəksiz.
Cani dildən mehribanlıq edərsən,
Sənin ilə deyər-gülər ürəksiz.

Dar günündə uzaq gəzər, sirlənər,
Şad günündə həsəd çəkər, qəmlənər,
Ürəyində nələr-nələr gizlənər,
Üzdə səni dostu bilər ürəksiz.

Sevinməyi, ağlamağı bilinməz,
Necə, nə cür yaşamağı bilinməz,
Mərd olmağı, olmamağı bilinməz,
Xain kimi səni istər ürəksiz.

Sənin qədər o, istəməz xətrini,
Ondan alar, bundan alar ətrini,
Əsla bilməz dəyərini-qədrini,
Sənə varar, sənə gələr ürəksiz.

Dost söyləmə bu dünyada hər kəsə,
İnanma gəl müxənnətə, nakəsə,
Habil Yaşar ürəyindən gəlməsə,
Çətin duyar, çətin sevər ürəksiz.